İDMAN
www.azsport.az
Qəzet 1932-ci ildən çıxır
AZƏRBAYCAN RESPUBLİKASI GƏNCLƏR VƏ İDMAN NAZİRLİYİNİN ORQANI
№ 21 (7116) 12 oktyabr 2021-ci il Qiyməti 40 qəpik

# Fərid Qayıbov Voleybol Federasiyasında olub



***Oktyabrın 8-də gənclər və idman naziri Fərid Qayıbov Azərbaycan Voleybol Federasiyasında olub. Federasiyanın fəaliyyəti ilə tanış olan nazir orada yaradılmış şəraitlə də maraqlanıb. Nazir məşq keçən yeniyetmə və gənc voleybolçularla görüşüb.***

Fərid Qayıbova federasiyada görülən işlər, idmançıların hazırlığı, regionlarda voleybol bölmələrinin təşkili, gənc idmançılarla aparılan işlər barədə məlumat verilib. Bu məlumatları çatdıran federasiyasının birinci vitse-prezidenti Faiq Qarayev mövcud çətinliklərdən, qarşıda duran vəzifələrdən və planlardan da danışıb.

Federasiyanın baş katibi Cəlil Cəfərovun, vitse-prezident Əbülfəs Hüseynovun, baş koordinator Zöhrab Gözəlbəylinin və yeniyetmələrdən ibarət milli komandanın voleybol komandasının baş məşqçisi Alla Həsənovanın da iştirak etdiyi görüşdə sadalanan məsələlər ətrafında fikir mübadiləsi aparılıb.




# Dünya çempionatını güləşçilərimiz uğurla başa vurublar



*Oktyabrın 2-dən 10-dək Norveçin paytaxtı Osloda güləş üzrə dünya çempionatı keçirilib.*

Yarışda ölkəmizi hər 3 güləş növü üzrə millilərimiz təmsil ediblər.

Belə ki, turnirdə əvvəlcə baş məşqçi Namiq Abdullayev, böyük məşqçi Zəlimxan Hüseynov və məşqçi Arif Abdullayevin rəhbərliyi altında sərbəst güləşçilər - Əfqan Xaşalov (57 kq), Kənan Heybətov (61 kq), Əli Rəhimzadə (65 kq), Turan Bayramov (70 kq), Coşqun Əzimov (74 kq), Əşrəf Aşırov (79 kq), Abubakr Abakarov (86 kq), Osman Nurməhəmmədov (92 kq) və İslam İlyasov (97 kq) mübarizə aparıblar.

Təmsilçimiz Abubakr Abakarov Ukrayna, Gürcüstan güləşçilərinə qalib gəlsə də, ABŞ təmsilçisi dünya və son olimpiya çempionu Deyvid Teylora məğlub olub və bürünc medal qazanıb.

Digər sərbəst güləşçimiz Osman Nurməhəmmədov Hindistan təmsilçisini, daha sonra Polşa güləşçisini məğlub edib. Finalın bir addımlığında Rusiya idmançısına uduzan Osman bürünc medal uğrunda güləşib. Belarus güləşçisinə qalib gələn təmsilçimiz dünya üçüncüsü olub.

Sərbəst güləşçilərdən sonra baş məşqçi Aslan Ağayev və məşqçi Rövşən Umudovun rəhbərliyi altında meydana çıxan qadın güləşçilərimiz - Türkan Nəsirova (50 kq), Alyona Kolesnik (59 kq) və Elis Manolova (65 kq) uğur qazana bilməyiblər.

⇨ səh. 6



# Azad Rəhimovun xatirəsinə həsr edilmiş şahmat turniri keçirilir

***Mərhum gənclər və idman naziri, görkəmli ictimai-siyasi xadim Azad Rəhimovun xatirəsinə həsr edilmiş şahmat turniri keçirilir.***

Məktəblilər arasında təşkil edilən turnirin açılış mərasimindən əvvəl nazirliyin rəhbərliyi və kollektivi, eləcə də tədbir iştirakçıları İkinci Fəxri xiyabanda Azad Rəhimovun xatirəsini yad edib, məzarı önünə əklil və gül dəstələri qoyublar.

Bakıdakı 132-134 saylı Təhsil Kompleksinin akt zalında keçirilən açılış mərasimində əvvəlcə Azad Rəhimov haqda hazırlanmış qısametrajlı film nümayiş olunub.

Tədbirdə Təhsil Kompleksinin direktoru Sara Xanlarova, gənclər və idman naziri Fərid Qayıbov, təhsil nazirinin müavini Firudin Qurbanov, Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə, Şahmat Federasiyasının prezidenti Elman Rüstəmov, Məktəb İdmanları Federasiyasının prezidenti Sevinc Hüseynova çıxış ediblər.

Sonra Azad Rəhimovun vaxtilə təhsil aldığı bu məktəbdə yaradılmış xatirə guşəsinə baxış keçirilib.

Qeyd edək ki, oktyabrın 8-də - Azad Rəhimovun doğum günündə startı verilən turnir 3 saylı Respublika İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Məktəbində ayın 15-dək davam edəcək. Klassik turnirdə Bakı və Sumqayıt şəhərlərindən, Qəbələ, Qax, Balakən, Şəki, Qusar, Yardımlı, Cəbrayıl, Laçın rayonlarından 8, 10, 12, 14, 16 yaşlı şahmatçılar iştirak edirlər.

# Cüdoçularımız İtaliyadan 2 medalla döndülər




***İtaliyanın Olbia şəhərində oktyabrın 6-dan 9-dək gənc cüdoçular arasında dünya çempionatı keçirilib.***

8 cüdoçu ilə yarışa qatılan komandamız 2 medal qazanıb. Belə ki, kişilər arasında turnirdə Turan Bayramov (60 kq) ardıcıl olaraq, You-Çonq Lin (Çin Taypeyi), Merey Markhanbetov (Qazaxıstan) və Roman Valadye Pikarda (Fransa) qalib gəlib.

⇨ səh. 6

# Fərid Qayıbov: Yalnız düzgün qurulmuş əlaqələr davamlı müvəffəqiyyətlə nəticələnə bilər




***Bir ay əvvəl gənclər və idman naziri vəzifəsinə təyin olundum. Bu, Azərbaycan Prezidenti İlham Əliyevin mənə göstərdiyi yüksək etimaddır. Təyinatım zamanı Prezidentin verdiyi tapşırıq və tövsiyələr üzərimizə böyük məsuliyyət qoyur.***

Bunu gənclər və idman naziri Fərid Qayıbov deyib.

Təyinatının həm gənclər, həm də idman sahələrində yeni mərhələnin başlanğıcına təsadüf etdiyini vurğulayan nazir bildirib: "İdmanda demək olar ki, həmişə Olimpiya Oyunlarının nəticələri yeni mərhələnin başlanmasını əlaqələndirir. Bu qlobal yarışlar obyektiv olaraq təkcə yüksək nəticələrin qazanıldığı idman növlərində deyil, həm də kütləvi idmanda mövcud olan qüsur, səhv və çatışmazlıqları üzə çıxarır. Təbii ki, Olimpiada güclü tərəflərimizi də göstərir. İdman bu gün böyük bir sənaye və təhsil, strategiya və kadr, təşkilati-hüquqi və maliyyə-təsərrüfat məsələləridir. Yalnız düzgün qurulmuş əlaqələr davamlı müvəffəqiyyətlə nəticələnə bilər".

F.Qayıbov bildirib ki, gənclər siyasətinin yeni mərhələsi qloballaşma və Qarabağın təxminən 30 illik işğaldan azad olunması ilə müəyyən edilir. Bölgədə baş vermiş geosiyasi dəyişikliklər bu andan etibarən və tarix boyunca gənclərin tərbiyəsi, mənəviyyatı, uğuru, mübarizliyi, milli qüruru və vətənpərvərliyi üçün əsas olacaq. Yeni mərhələ yalnız prioritetlər deyil, həm də iş prosesinin özünün yenidən qurulması ilə bağlıdır. Gənclərin və idmançıların maraqları naminə çalışmaq insan kapitalını artıran sistemli iş qurmaq deməkdir. Hər bir sahədə olduğu kimi, gənclər və idman sahələrində də islahatlara ehtiyac duyulur. Vəziyyəti səciyyələndirən göstəricilərin sistemli şəkildə toplanmasına, ekspertlərin analizlərinə və müqayisəli təhlillərə diqqət göstəriləcək. İndi çox sayda görüşlər keçiririk ki, onlar təkcə mütərəqqi deyil, həm də obyektiv qərarlar qəbul etməyə kömək edəcək.

"Bir ay ərzində bir sıra idman federasiyalarında qonaq olduq, ən kütləvi gənclər, ictimai təşkilatların rəhbərləri, mətbuat nümayəndələri ilə görüşdük. Xaricə işgüzar səfərlərim zamanı ölkənin bir qrup gənc sahibkarları ilə tanış oldum. Türk Şurası çərçivəsində "Çoxtərəfli Gənclər Mübadiləsi Proqramı" adlı yeni təşəbbüsə başladıq. İstanbulda keçirilmiş "Texnofest"də iştirak gənclərimizin innovativ elmi və texniki yaradıcılığını dəstəkləmək üçün əhəmiyyətli idi", - deyə nazir əlavə edib.

Keçirilən görüşlərin həm vəziyyəti öyrənmək, həm də kadr potensialını və ehtiyatlarını qiymətləndirmək məqsədi daşıdığını deyən F.Qayıbov bildirib: "Qərarlar yeniliklər və təcrübə balansını saxlamaqla birlikdə veriləcək. Bundan əlavə, Avropa Gimnastikasının prezidenti kimi, vəzifələrimi yerinə yetirməkdə davam edirəm. Hər iki vəzifə görüləcək işlər haqqında anlayışımı artırır, alətlərlə zənginləşdirir və səmərəliliyi yüksəldir. Əminəm ki, rasional yanaşma səmərəli idarəetmə və davamlı nəticələr üçün yaxşı zəmin olacaq.

Son zamanlar siyasi, sosial-iqtisadi sahələrdə əldə olunan nailiyyətlər fonunda gənclərin şüurunda əhəmiyyətli dəyişikliklər baş verir. Kütləvi bədən tərbiyəsi və idmanda da müasir yanaşma tətbiq edilməlidir. Çətinlikləri bilirik, problemləri, səbəbləri-ni, əlaqələrini və təsirlərini təyin edirik. Veriləcək qərarlar və əməli hərəkətlər məntiqli, sağlam, başa düşülən, dəstəklənən və məsuliyyətli olacaq.



# Gənclər və idman naziri Velosiped İdmanı Federasiyasının fəaliyyəti ilə tanış olub

***Gənclər və idman naziri Fərid Qayıbov Azərbaycan Velosiped İdmanı Federasiyasının (AzVİF) fəaliyyəti ilə tanış olub.***

Nazir velosiped idmanı üzrə yığma komandamızın üzvləri, eləcə də paravelosipedçilər ilə görüşüb, onların problemləri ilə maraqlanıb, məşq proseslərini izləyib.

F.Qayıbov federasiyada və Respublika Velotrekində yaradılmış şəraitlə də maraqlanıb. Nazir Federasiyanın nəzdindəki muzeyə baxıb. AzVİF-in birinci vitse-prezidenti Sahib Ələkbərov nazirə federasiyanın fəaliyyəti, yerli və beynəlxalq səviyyəli yarışlara hazırlıq, gənc idmançılarla işin qurulması, çətinliklər, federasiyanın gələcək planları barədə məlumat verib.

Qeyd olunan məsələlər ətrafında fikir mübadilələri aparılıb.

Görüşdə federasiyanın baş katibi Fərhad Əliyev, yığma komandanın baş məşqçisi Əbülfəz Məmmədov iştirak ediblər.

# Pirallahı adasında "IronWinD" triatlon turniri keçirilib



***Oktyabrın 10-da Pirallahı adasında "IronWinD" beynəlxalq triatlon turniri keçirilib. Gənclər və idman naziri Fərid Qayıbov yarışı izləyib.***

Gənclər və İdman Nazirliyi və Azərbaycan Triatlon Federasiyasının dəstəyi, "Triterra Baku Triathlon Club"ın təşkilatçılığı ilə keçirilən turnirin iştirakçıları Olimpiya məsafəsində yarışıblar. İdmançılar qələbə uğrunda 1,5 km üzüb, sonra 40 km velosiped sürüb və 10 km qaçıblar. Turnirə qatılan 60 idmançıdan 7-si İngiltərə, Fransa, Rusiya, Ukrayna və digər xarici ölkələrin təmsilçiləri olublar.

Gərgin mübarizə şəraitində keçən yarışın yekununda, kişilər arasında Toğrul Məmmədli birinci, Cəlal Süleymanov ikinci, Tamerlan Ələkbərov üçüncü yerləri tutublar. Qadınların yarışında Rabiyə Orucova birinci, Könül Əliyeva isə ikinci olub. Estafet yarışında isə Vüqar Abdullayev, Vüsal Mikayılzadə, Denis Karçaşkin üçlüyü qalib gəlib.

Qaliblərə müvafiq diplom və medallar, qiymətli hədiyyələr təqdim edilib.




# ADBTİA-nın yeni tədris korpusu istifadəyə verilib

***Sentyabrın 28-də yeni tədris ilinin başlanması münasibətilə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının yeni üçmərtəbəli tədris korpusu istifadəyə verilib.***



Gənclər və idman naziri Fərid Qayıbov yeni korpusda yaradılan şəraitlə tanış olub.

Əvvəlcə Akademiyanın foyesində ulu öndər Heydər Əliyevin büstü önünə gül dəstələri qoyulub.

Yeni tədris korpusunda auditoriyalara İkinci Qarabağ müharibəsində ADBTİA-nın şəhid olmuş 13 məzununun adları verilib və Vətən uğrunda canında keçmiş qəhrəmanların ad-soyadları yazılan lövhələr auditoriyaların qapılarına vurulub. Burada doktorantura və "SABAH" qruplarının tədrisi üçün hər cür şərait yaradılıb.

Rektor Fuad Hacıyev məlumat verib ki, Akademiyanın şəhid məzunlarının adlarına xüsusi təqaüdlər də təsis edilib.

Fərid Qayıbov Akademiyanın elmi-tədris laboratoriyasının da fəaliyyəti ilə tanış olub və burada reabilitasiya prosesi keçən qazilər Amin Musayev və Emin Eminovun səhhəti ilə maraqlanıb.

Yeni tədris ilinin başlanması münasibətilə Akademiyanın akt zalında təqdimat keçirilib və təhsil ocağının fəaliyyətini əks etdirən videoçarx nümayiş olunub.



# Gənclər və idman naziri Rusiya və Yaponiya səfirləri ilə görüşüb



Oktyabrın 11-də gənclər və idman naziri Fərid Qayıbov Rusiya Federasiyasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Mixail Boçarnikov, Rusiya İnformasiya və Mədəniyyət Mərkəzinin direktoru İrek Zinnurov, attaşe Nikita Baraz, Yaponiyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Cuniçi Vada, 3-cü katib Ono Taiçi və səfirliyin əməkdaşı Aysel Məmmədli ilə görüşüb. Gənclər və İdman Nazirliyində keçirilən görüşlərdə həm Rusiya, həm də Yaponiya ilə ikitərəfli əlaqələrin əhəmiyyəti vurğulanıb, gənclər və idman sahələrində əməkdaşlıq məsələləri müzakirə edilib. Görüşlər zamanı Yaponiyanın paytaxtı Tokioda keçirilən Yay Olimpiya Oyunlarında və Rusiyanın Kazan şəhərində təşkil edilmiş Birinci MDB Oyunlarında Azərbaycan idmançılarının çıxışları barədə danışan nazir Fərid Qayıbov hər iki yarışın yüksək səviyyədə təşkil olunmasını vurğulayıb.



# MOK-un baş katibinin müavini EYOF Koordinasiya Komissiyası üzvlərinin toplantısında iştirak edib



***Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) baş katibinin müavini Azər Əliyev 2022-ci il Avropa Gənclər Yay Olimpiya Festivalının (EYOF) Koordinasiya Komissiyası üzvlərinin toplantısında iştirak edib.***

EYOF-un Koordinasiya Komissiyası Slovakiyanın Banska-Bistrisu şəhərində təşkil olunub. Tədbir iştirakçıları festivalın təşkilatçıları tərəfindən hazırlıq işlərinin gedişi ilə bağlı ətraflı məlumatlandırılıblar. Qonaqlar qarşıdan gələn EYOF çərçivəsində tədbirlərin keçiriləcəyi idman qurğuları, yaşayacaqları bina və obyektlərlə tanış olublar.

MOK baş katibinin müavini Azər Əliyevin də təmsil olunduğu Koordinasiya Komissiyasının üzvləri şəhərin mərkəzində yerləşən və böyük tamaşaçı kütləsi cəlb edəcəyi proqnozlaşdırılan yeni atletika stadionu, üzgüçülük hovuzu, triatlon üçün meydança, cüdo və badminton zalları, tennis kortları və fan zonadan ibarət mərkəzi idman klasterinə baxış keçiriblər.

Təşkilat Komitəsinin və Slovakiya Milli Olimpiya Komitəsinin gənc komandasının gerçəkləşdirdiyi üçgünlük səfər şəhər meri Yan Noskonun iştirakı ilə baş tutan mətbuat konfransı ilə yekunlaşıb.

# MOK-un Atletlər Komissiyasının yeni tərkibdə ilk əyani iclası keçirilib



***Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) Atletlər Komissiyasının bu ilin aprelində müəyyənləşən yeni tərkibdə ilk iclası olub.***

Oktyabrın 29-da keçirilən tədbirdə idmançılar ilə Beynəlxalq Olimpiya Komitəsi (BOK) arasında əlaqələndirici rol oynayan Atletlər Komissiyasının vəzifələri və planları haqda fikir mübadiləsi aparılıb.

Olimpiya hərəkatı ilə bağlı qəbul olunan qərarlarda idmançıların fikirlərinin də nəzərə alınması üçün qurumun fəallığının vacibliyi vurğulanıb.

Komissiyanın sədri, cüdoçu Rüstəm Orucov, üzvləri isə Sabina Mikina (qılıncoynatma), Kamran Şahsuvarlı (boks), Fəridə Əzizova (taekvondo), Nazim Babayev (atletika), Rəsul Çunayev (yunan-Roma güləşi) və Fatimə Əlkərəmovadır (üzgüçülük).

İclasda Fəridə Əzizova və Nazim Babayevin Xorvatiyanın Dubrovnik şəhərində atletlərin 6-cı Assambleyasında qaldıracaqları məsələlər də müzakirə olunub.

Fəridə Əzizova və Nazim Babayev Assambleyada iştirakdan sonra komissiyanın sədri Rüstəm Orucovla birlikdə mətbuat konfransı keçirərək, atletlər komissiyasının fəaliyyəti, gələcək planları və atletlərin 6-cı Assambleyası barədə məlumat veriblər. Sonda jurnalistlərin sualları cavablandırılıb.

# İlqar Rəhimov yenidən Azərbaycan Milli Paralimpiya Komitəsinin prezidenti seçilib

***Azərbaycan Milli Paralimpiya Komitəsinin (AMPK) video-konfrans rejimində ümumi yığıncağı keçirilib.***

İclasda şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Daha sonra gündəlikdə duran məsələlər müzakirəyə çıxarılıb.

Komitənin baş katibi Kamal Məmmədov AMPK-nın 2017-2021-ci illərdəki fəaliyyəti barədə hesabat məruzəsi ilə çıxış edib. O, 2024-cü ildə Parisdə keçiriləcək XVII Yay Paralimpiya Oyunlarına hazırlıqla əlaqədar AMPK tərəfindən görüləcək işlər haqqında geniş məlumat verib.

Ümumi yığıncaqda "Tokio-2020" XVI Yay Paralimpiya Oyunlarının mükafatçıları AMPK-ya üzv seçiliblər.

Yığıncaqda təşkilati məsələlərə də baxılıb. AMPK-nın üzvlərinin səsverməsi nəticəsində İlqar Rəhimov yenidən komitənin prezidenti seçilib. İlham Zəkiyev və Yaşar Hacıyev vitse-prezident, Kamal Məmmədov isə baş katib vəzifələrinə seçiliblər.

Yığıncaqda AMPK-nın İcraiyyə Komitəsinin yeni tərkibi də təsdiq edilib.




# Xəzər İsayev Avropa Ədalətli Oyunlar Hərəkatının İcraiyyə Komitəsinin üzvü seçilib



***Avstriyanın paytaxtı Vyanada Avropa Ədalətli Oyunlar Hərəkatının (AƏOH) 26-cı Konqres və Assambleyası keçirilib.***

İyirmi iki ölkədən nümayəndələrin iştirak etdiyi tədbirdə ölkəmizi Milli Olimpiya Komitəsinin vitse-prezidenti, Azərbaycan Ədalətli Oyunlar Komissiyasının (AzƏOK) sədri, Dövlət Gömrük Komitəsi İdman Sağlamlıq Mərkəzinin baş direktoru Xəzər İsayev və AzƏOK-un məsul katibi Aysel Sultanova təmsil ediblər.

Konqresin əsas mövzusu "Ədalətli Oyunlar üçün təhsil - təşəbbüslər və layihələr" olub.

Mövzu ətrafında bir sıra nümayəndə heyətlərinin məruzələri dinlənilib, Avropa Ədalətli Oyunlar Hərəkatının 2020/2021-ci il üzrə yekunlarına əsasən mükafatları sahiblərinə təqdim edilib.

Azərbaycan nümayəndə heyəti tərəfindən AzƏOK-un 2020-2021-ci illər ərzində gördüyü işlərin hesabatı məruzə edilib.

Assambleya çərçivəsində qurumun prezidentliyinə və İcraiyyə Komitəsinə seçkilər keçirilib. Səsvermənin nəticələrinə əsasən, yeganə namizəd olan belçikalı Filip Housiaux AƏOH-un prezidenti seçilib. Latviyalı Baiba Veisa, xorvatiyalı Biserka Vrbek quruma yeni vitse-prezident təyin olunublar. MOK tərəfindən namizədliyi irəli sürülən AzƏOK-un sədri Xəzər İsayev 4 il müddətinə AƏOH-un İcraiyyə Komitəsinə üzv seçilib.

Tədbirin sonunda AƏOH-un yeni seçilmiş prezidentinə MOK-un xatirə hədiyyəsi təqdim edilib.

# Qazilər Paralimpiya Hərəkatına cəlb edilir



***Oktyabrın 6-da Şirvan Olimpiya İdman Kompleksində Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə sağlamlığını itirmiş qazilərin Paralimpiya Hərəkatına cəlb edilməsi ilə bağlı görüş olub.***

Görüşdə Vətən müharibəsində şücaət göstərmiş qazilər Qəmbər Salayev, Həbib Səlhəngov, Fuad Dadaşov, Pərvin Əhmədov və Yusif Əsədov, Azərbaycan Milli Paralimpiya Komitəsinin (AMPK) idman şöbəsinin müdiri Rauf Mürsəlov, ikiqat Paralimpiya çempionu, atletika üzrə milli komandanın baş məşqçisi Oleq Panyutin və digərləri iştirak ediblər.

R.Mürsəlov bildirib ki, müharibə zamanı əlil olan şəxslər AMPK-nın milli komandalarının tərkibində müxtəlif idman növləri ilə məşğul olaraq ölkəmizi beynəlxalq arenada uğurla təmsil edirlər.

O.Panyutin qazilərə Paralimpiya Hərəkatına qoşularaq həm peşəkar idmanla məşğul ola, həm də üçrəngli bayrağımızı beynəlxalq arenalarda dalğalandıra biləcəklərini qeyd edib.

Görüşün sonunda Qarabağ qaziləri Paralimpiya Hərəkatına qoşularaq ölkəmizi beynəlxalq arenalarda idman vasitəsilə təmsil etməyə hazır olduqlarını vurğulayıblar.

# AMADA-nın ötənilki fəaliyyətinin hesabatı dərc olunub




***Azərbaycan Milli Antidopinq Agentliyi (AMADA) 2020-ci il ərzindəki fəaliyyətinə dair ətraflı məlumatların yer aldığı hesabat jurnalı dərc edib.***

Ötən il COVID-19 pandemiyası bütün sahələrə olduğu kimi, dopinq nəzarəti sahəsinə də təsirini göstərib. COVID-19 ilə bağlı məhdudiyyətlər və pandemiyanın yaratdığı reallıqlar digər illərlə müqayisədə tamamilə yeni və fərqli şərait yaradıb. Məhz buna görə Agentlik 2020-ci ildə işini pandemiyanın yaratdığı reallıqları nəzərə alaraq qurub və məhdudiyyətlərlə əlaqədar fəaliyyətinin davamlılığını və effektivliyini təmin etmək üçün çevik qərarlar qəbul edib. Dopinq nəzarəti testlərinin götürülməsi prosesi idmançıların və nümunə toplama heyətinin təhlükəsizliyinin təmin olunması məqsədilə tələblərə tam uyğun şəkildə həyata keçirilib. Dopinq nəzarətinin ən mühüm vasitələrindən olan antidopinq maarifləndirməsi əsasən distant üsulla olmaqla fasiləsiz təşkil edilib. AMADA maarifləndirmə işlərində Ümumdünya Antidopinq Məcəlləsinin təbiqi ilə bağlı üzərinə düşən öhdəlikləri əvvəlcədən hazırlanan mərhələli proqram əsasında tam və vaxtında icra edib.

Ötən il AMADA bir sıra beynəlxalq layihələri uğurla həyata keçirib, beynəlxalq tərəfdaşlarla keçirilən çoxsaylı görüşlər, imzalanan müqavilələrlə əməkdaşlığı daha da genişləndirib.

AMADA Vətən müharibəsində əldə etdiyimiz böyük Zəfərə kiçik də olsa töhfə vermək üçün müxtəlif yardım və təbliğat tədbirləri həyata keçirib.

AMADA il ərzindəki fəaliyyətində innovativ və qabaqcıl yanaşmaları tətbiq edərək fərq yaratmağa çalışıb. Elə buna görə də 2020-ci ilin yekunlarına həsr olunmuş hesabat "Fərqli" adlandırılıb. AMADA-nın fəaliyyəti ilə bağlı ətraflı məlumatların yer aldığı hesabat jurnalının elektron versiyası Azərbaycan və ingilis dillərində AMADA-nın rəsmi internet saytında yerləşdirilib.

# Ali təhsilin bakalavr pilləsində antidopinq bilikləri tədris ediləcək




***Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının (ADBTİA) "İdman menecmenti və kommunikasiya" ixtisası üzrə təhsil alan bakalavr tələbələrinə "İdmanda dopinq nəzarəti" seçmə fənni tədris ediləcək.***

Bu məqsədlə Akademiyanın Tibbi-bioloji elmlər kafedrasının müəllimləri üçün agentliyin mütəxəssisləri tərəfindən "Antidopinq tədris proqramı" həyata keçirilir.

Proqramı uğurla tamamlayan müəllimlər Akademiyada "İdmanda dopinq nəzarəti" fənnini tədris edəcəklər. Bundan əlavə, onlar antidopinq maarifləndirməsi ilə bağlı lazımi tədris materialları ilə təmin ediləcəklər.

Qeyd edək ki, AMADA bu sahədə ADBTİA ilə 2019-cu ildən əməkdaşlıq edir və magistr pilləsində təhsil alan tələbələr üçün agentliyin mütəxəssisləri tərəfindən antidopinq tədris proqramı keçirilib.



# Cüdoçular şəhid övladı ilə görüşüblər

***Azərbaycan Cüdo Federasiyasının təlim-məşq bazasında Vətən müharibəsi zamanı Füzuli rayonu uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuş Elşən Musayevin oğlu, cüdoçu Hüseyn Musayev ilə görüş olub.***

Tədbirdə Hüseynin atası, şəhid Elşən Musayevin müharibədə göstərdiyi rəşadətdən və keçdiyi qəhrəmanlıq yolundan geniş söhbət açılıb.

Sonra milli komandamızın baş məşqçisi Mövlud Mirəliyev Hüseynə xatirə hədiyyələri təqdim edərək onu tanınmış və öndə gedən cüdoçularımız, eləcə də milli komandanın məşqçilər korpusu ilə tanış edib. Mövlud Mirəliyev balaca cüdoçumuza gələcək həyatında böyük uğurlara imza atmağı və Azərbaycanın idman şərəfini layiqincə təmsil etməyi arzulayıb. Daha sonra şəhid övladı ilə xatirə şəkli çəkdirilib.

Tədbirin sonunda şəhid ailələrinə daim diqqət və qayğı göstərən, bu görüş üçün şərait yaradan Azərbaycan Cüdo Federasiyasının rəhbərliyinə bütün məşqçilər və idmançılar adından minnətdarlıq ifadə olunub.

# Astarada şəhid Arif Qeybiyevin xatirəsinə həsr olunmuş atletika yarışı təşkil edilib



***Oktyabrın 10-da Milli Olimpiya Komitəsinin, Atletika Federasiyasının və Gənclər və İdman Nazirliyinin təşəbbüsü ilə Astara şəhər bulvarında şəhid Arif Qeybiyevin xatirəsinə həsr edilmiş atletika yarışı keçirilib.***

Tədbirdə Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə, millət vəkili Rəşad Mahmudov, Astara Rayon İcra Hakimiyyətinin nümayəndələri, Atletika Federasiyasının vitse-prezidenti Firat Hüseynov və başqaları iştirak ediblər.

Natiqlər şəhid Arif Qeybiyevin qəhrəmanlığından, şərəfli döyüş yolundan, onun ölkəmizin idman həyatına verdiyi töhfədən, yarışlarda qazandığı uğurlardan danışıb, Birinci Avropa Oyunlarında olimpiya məşəlini məhz Astarada onun qaldırdığı qeyd ediblər.

Daha sonra tədbir idman yarışı ilə davam edib, qaliblər diplom və medallarla təltif olunublar.

# ADBTİA-da əyani tədrisə start verilib

***Sentyabrın 29-da Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında (ADBTİA) əyani tədrisə start verilib.***

ADBTİA-nın mətbuat xidmətindən bildiriblər ki, əyani formada dərslərdə iştirak edəcək tələbə və müəllimlərin sağlamlığının qorunması, Nazirlər Kabinetinin "Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasında fəaliyyət göstərən təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkilinin müvəqqəti Qaydaları"nın tələblərinə riayət olunması üçün bütün zəruri tədbirlər görülüb.

Tədris binalarında profilaktik və preventiv tədbirlər gücləndirilib, sanitar-epidemioloji vəziyyətə ciddi nəzarət olunur. Universitetə daxil olan hər bir əməkdaş və tələbənin COVID-19 pasportu yoxlandıqdan sonra quraşdırılmış cihazlar vasitəsilə hərarəti yoxlanılır, dezinfeksiya tunellərindən keçdikdən sonra tədris binalarına daxil olmalarına icazə verilir.

İlk dərs günündə birinci kurs tələbələri Akademiya ilə tanış olublar.

Qeyd edək ki, həmin gündən etibarən, yeni 3 mərtəbəli tədris korpusu tələbələrin istifadəsinə verilib.

## Akrobatika gimnastlarımız qitə çempionatında üç medal qazanıblar



*İkiillik fasilədən sonra keçirilmiş akrobatika gimnastikası üzrə Avropa çempionatı Azərbaycan millisi üçün uğurlu olub.*

İtaliyanın Pesaro şəhərində təşkil olunan çempionatda ölkəmizi böyüklər arasında qarışıq cütlüklərin yarışında Ağasif Rəhimov və Raziyə Seyidli, Murad Rəfiyev və Daniel Abbasovdan ibarət kişi cütlüyü, gənclər yaş qrupunda isə qadın qrupu tərkibində Mənsumə Məmmədzadə, Leyla Beşirova və Nəzrin Fərmanova təmsil ediblər.

Akrobatlarımız yarışın elə ilk günündən medal qazanıblar. Qadın qrupumuz temp hərəkətlərinə görə hakimlərdən 27,400 xal alaraq bürünc medal qazanıblar.

A.Rəhimov və R.Seyidli isə komandamızın aktivinə həm gümüş, həm də bürünc medal yazdırıblar. Gimnastlarımız qarışıq hərəkətlər proqramı üzrə nümayiş etdirdikləri çıxışlarına görə 86,470 xal toplayaraq, fəxri kürsünün ikinci pilləsində qərarlaşıblar. Yarışın sonuncu günündə temp hərəkətlərinə görə bürünc medal qazanaraq, Pesaronun "Vitrifriqo Arena"sında üç rəngli bayrağımızın üçüncü dəfə ucaldılmasına nail olublar.

M.Rəfiyev və D.Abbasovdan ibarət kişi cütlüyümüz isə ən yaxşı nəticəsini qarışıq hərəkətlər proqramı üzrə göstərərək beşinci olub.

## Avropa Yaş Qrupları Yarışlarından gümüş medal



*Akrobatika gimnastikası üzrə Azərbaycan yığmasının üzvləri İtaliyanın Pesaro şəhərində təşkil edilmiş Avropa Yaş Qrupları Yarışlarında uğurla çıxış ediblər.*

12-19 yaşlı idmançılar arasında mübarizə aparmış Milana Əliyeva və Nizam Xamidulindən ibarət qarışıq cütlüyümüz final mərhələsinə adlamağı bacarıblar. Həlledici mərhələdə isə qarışıq hərəkətlər proqramı üzrə nümayiş etdirdikləri kompozisiyalarına görə perspektivli gimnastlarımız 27,200 xal toplayaraq gümüş medal qazanıblar.

Yarışda 12-19 yaşlı idmançılar arasında Samirə Rüstəmova və Rauf Cabbarovdan ibarət daha bir qarışıq cütlüyümüz də iştirak edib. Təəssüf ki, onlar final mərhələsinə adlaya bilməyiblər.

## Azərbaycanlı MMA döyüşçüsü Zabit Səmədovdan daha bir qələbə

*Azərbaycanın məşhur kikboksçusu və MMA döyüşçüsü Zabit Səmədov növbəti qələbəsini qazanıb.*

İdmançımız Fransanı təmsil edən Nayf Didie ilə K-1 qaydaları əsasında keçirilən döyüşdə qarşılaşıb.

Həmyerlimiz rəqibini texniki nokautla məğlub edib. İdmançılar arasında döyüş Çeçenistanda baş tutub.



## Respublika stadionunun 70 illiyi münasibətilə yoldaşlıq görüşü keçirilib

*Sentyabrın 29-da Azərbaycan İdman Jurnalistləri Federasiyasının (AİJF) və Futbol Veteranları İttifaqının (FVİ) yığma komandaları Tofiq Bəhramov adına Respublika stadionunun 70 illik yubileyi münasibətilə yoldaşlıq görüşündə üz-üzə gəliblər.*



Respublika stadionunun qapalı meydançasında keçirilmiş oyundan öncəki rəsmi mərasimdə Gənclər və İdman Nazirliyinin futbol sektorunun müdiri Fikrət Hüseynov, AİJF prezidenti, Əməkdar jurnalist Qabil Mehdiyev, AİJF İdarə Heyətinin üzvü Elşən Məmmədov, veteran futbolçu Maşallah Əhmədov, stadionun direktoru Şamil Quliyev çıxış ediblər.

AİJF prezidenti Azərbaycanda idmanın inkişafına verdiyi töhfəyə görə və 70 illik yubileyi münasibətilə Şamil Quliyevə xatirə diplomu, Maşallah Əhmədov isə veteran futbolçuların imzaladığı topu təqdim edib. Ş.Quliyev isə yubiley tədbirinin təşkilinə dəstək olduqları üçün Futbol Veteranları İttifaqına və AİJF-yə diplom, E.Məmmədova isə forma hədiyyə edib.

Bundan sonra komandalar meydana daxil olublar. Oyun Vətən müharibəsi qazisi, baş leytenant Anar Əhmədov və I Qarabağ müharibəsinin iştirakçısı, veteran futbolçu Novruz Əzimovun topa ilk toxunuşu etməsi ilə başlayıb. Görüş veteran futbolçuların 6:4 hesablı qələbəsi ilə ilə yekunlaşıb. Veteranlardan qolları Vüqar Nadirov (2), Samir Əliyev, Əli Abışov, Paşa Əliyev və İlqar Qurbanov vurublar. AİJF-nin heyətində isə Mirbağırağa Cəfəri (2), Xanoğlan İmanov və Emin Abbasov fərqləniblər.



## AMPK prezidenti Şika şəhərinin meri ilə onlayn görüş keçirib

*Azərbaycan Milli Paralimpiya Komitəsinin (AMPK) prezidenti İlqar Rəhimov Yaponiyanın Şika şəhərinin meri Koizumi Masaru ilə görüş keçirib.*




Onlayn formatda keçirilən görüşdə İ.Rəhimov "Tokio-2020" XVI Yay Paralimpiya Oyunlarından əvvəl üzgüçülük üzrə milli komandanın üzvləri üçün yaradılmış şəraitə görə mərə təşəkkür edib. İ.Rəhimov "Tokio-2020"nin Azərbaycanın Paralimpiya milli komandası üçün çox məhsuldar olduğunu vurğulayıb.

Koizumi Masaru yarışları izlədiyini deyib və üzgüçülük üzrə fərqli kateqoriyalarda 4 qızıl medalın qazanılmasını möhtəşəm nəticə kimi dəyərləndirib. O, Azərbaycan milli Paralimpiya komandasını belə yüksək nailiyyətlərinə görə təbrik edib. Mer gələcəkdə əməkdaşlığın müxtəlif sahələrdə davam edəcəyinə əmin olduğunu vurğulayıb.

Görüşdə iştirak edən üzgüçü, üçqat Paralimpiya çempionu Raman Saleh, "Tokio-2020"nin qalibi Vəli İsrafilov və yığmamızın ən gənc üzvü Dana Şandıbina yaradılmış şəraitə görə merə və şəhər sakinlərinə təşəkkürlərini bildiriblər.

Görüşdə Şika şəhərinin məktəbliləri də iştirak ediblər.

## Formula 1 Azərbaycan Qran-Prisinin vaxtı dəqiqləşib

*Formula 1 üzrə gələn il keçiriləcək dünya çempionatının ilkin təqvimi açıqlanıb.*

Təqvimə əsasən, Azərbaycan Qran-Prisi iyunun 12-də təşkil olunacaq. Ümumilikdə mövsümdə 23 yarışın keçirilməsi planlaşdırılır. Təqvimin son versiyasını Beynəlxalq Avtomobil Federasiyası təqdim edəcək. Bundan sonra dəyişikliklərin ola biləcəyinə baxmayaraq artıq bilet satışına başlanacaq.




Formula 1-in ilk mərhələsi martın 20-də Bəhreyndə keçiriləcək.

Sonrakı mərhələlərə Səudiyyə Ərəbistanı (27 mart), Avstraliya (10 aprel), Çin (17 aprel), ABŞ (8 may), İspaniya (22 may), Monako (29 may), Azərbaycan (12 iyun), Kanada (19 iyun), Böyük Britaniya (3 iyul), Avstriya (10 iyul), Fransa (17 iyul), Macarıstan (31 iyul), Belçika (28 avqust), Hollandiya (4 sentyabr), İtaliya (11 sentyabr), Rusiya (25 sentyabr), Sinqapur (2 oktyabr), Yaponiya (9 oktyabr), ABŞ (23 oktyabr), Mexiko (30 oktyabr), Braziliya (13 noyabr) və Abu-Dabi (20 noyabr) ev sahibliyi edəcək.

# “Qarabağ” iddiasını əsaslandırdı, qaldı təsdiqi




Avropa Konfrans liqasının qrup mərhələsində qələbə üçün hər bir şansı olan ”Qarabağ” futbol klubu ilk oyunda iki xal itirib, bir xal qazansa da, qrupun ikinci turunda prinsipial səfər matçında əzmkar qələbə ilə favoritliyini əsaslandrdı.

Açığı, hesabı oyuna görə olmayan ilk hissədən sonra ”Qarabağ” məhz yetkin taktiki gedişləri ilə rəqibi mat vəziyyətinə saldı. Birinci yarıda üstün görünməsinə rəğmən buraxılan qolda daha çox öz səhvi olan komanda, ikincidə meydanın özünə aid hissəsində daha səlis göründü. Rəqib isə sanki ”Qarabağ”ı əks hücumda yaxalamaq kimi planlarını nəinki həyata keçirə bilmədi, hətta quruculuqda normal bir planlı hücum da qura bilməyəcəyini əyani nümayiş etdirdi.

İndi Ağdam təmsilçisi qarşıdakı iki matçda maksimum nəticəyə köklənməlidir. Açığı, ”Kayrat” imkanlarına və taktiki planlamasına görə təhlükəli rəqibdir. Bunu onun İsveçrədəki direnişində də görmək olurdu. Qazaxıstan klubu buraxılan səhvləri bağışlamır, lakin təzyiqə də dözümlü deyil. ”Qarabağ”ın sabit oyun tərzi isə belə komandalar üçün daha çox sınaq olur. Bir sözlə, arxa planda səhvə yol verməmək əsas vəzifə olmaqla, ”Qarabağ” yaradıcı potensialının gücü ilə hər iki görüşdə maksimal nəticəyə nail ola və qrupda iddiasını təsdiq edə bilər. ”Omonia” isə ”Bazel”lə görüşlərdə maksimum nəticəyə çalışacağından təmsilçimiz üçün münasib nəticələr də gözləməyə dəyər. Beləliklə, ”Qarabağ” üçün qarşıdakı fasilə dövründə daha çox rəqibləri təhlil etmək vacibdir. Bunun üçün kifayət qədər oyun nümunələri də var.

***BATI YAR***




## Futbol. UEFA Konfrans liqası. "H" qrupu

**2-ci tur**
**”Omonia” (Kipr) - ”Qarabağ” (Azərbaycan) 1:4 (1:0)**

***30 sentyabr. Nikosia. GSP stadionu.***

**Hakimlər:** Bobbi Madden - David Rumi, Alan Melvanni - Kreyq Nepyer (Şotlandiya).

**Qol:** Leçyaks, 40//Kadi, 52, 90+3, Şeydayev, 73, Medvedev, 79-pen.

**Sarı vərəqə:** Zaxariu, 62// Andrade, 37.

**”Omonia”:** Fabianu, Tomaş Huboçan, Adam Lanq, Paris Psaltis, Yan Leçyaks (Kiku, 81), Xordi Qomes (kap.), Fuad Bəşiru (Abdullahi Şehu, 30), Panayotis Zaxariu (Marko Şçepoviç, 64), Marinos Tsioni, Fotis Papulis (Loyzos Loyzu, 46), Andronikos Kakulli (Erik Botok, 64). **Baş məşqçi:** Henninq Berq.

**”Qarabağ”:** Şahruddin Məhəmmədəliyev, Maksim Medvedev (kap.), Kevin Medina, Abbas Hüseynov, Toral Bayramov, Qara Qarayev, Patrik Andrade (Riçard Almeyda, 85), Filip Ozobiç (Marko Veşoviç, 74), Kadi, Abdullah Zubir, İbrahima Vaci (Ramil Şeydayev, 66). **Baş məşqçi:** Qurban Qurbanov.

***Qrupun digər oyunu:*** **”Bazel” (İsveçrə) - ”Kayrat” (Qazaxıstan) 4:2** (Kabral, 15, M.Lanq, 21, 40, Ndoye, 49//Kante, 65, Rikardu Alveş, 69-pen.).

| | O | Q | H | M | T | X |
|---|---|---|---|---|---|---|
| 1. ”Qarabağ” | 2 | 1 | 1 | 0 | 4-1 | 4 |
| 2. ”Bazel” | 2 | 1 | 1 | 0 | 4-2 | 4 |
| 3. ”Kayrat” | 2 | 0 | 1 | 1 | 2-4 | 1 |
| 4. ”Omonia” | 2 | 0 | 1 | 1 | 1-4 | 1 |

# Azərbaycanın fudokan komandası Avropa çempionatını dörd medalla başa vurub

***Polşanın Katovis şəhərində fudokan döyüş növü üzrə 25-ci Avropa çempionatını Azərbaycan komandası dörd medalla başa vurub.***

Belə ki, böyüklər arasında komanda yarışında böyük əzmkarlıq nümayiş etdirən millimizin kapitanı Ülvi Məmmədov ciddi zədə almasına baxmayaraq, mübarizəni sona qədər davam etdirib. Gərgin idman mübarizəsinin sonunda yığmamız yarışda üçüncü yeri tutub. Böyüklər arasında komanda yarışlarının bürünc medalı Ülvi Məmmədova təqdim edilib.




Uşaqların yarışında Elmməddin Səlimli bütün rəqiblərini məğlub edərək qızıl medal qazanıb. İdmançılarımız Əsəd İmanov gümüş, Nicat Əsədov (18-21 yaşlılar) bürünc medallara layiq görülüblər. Komandanın digər üzvü Ülvi Məmmədov isə ciddi zədə səbəbindən şəxsi qarşılaşmalarda mübarizə apara bilməyib.

Qeyd edək ki, turnirdə ölkəmizi Dünya Fudokan Federasiyasının Azərbaycanda rəsmi və səlahiyyətli nümayəndəsi Vüsal Abdullazadənin rəhbərliyi ilə dörd idmançı təmsil edib. Komandamız yarışa Gənclər və İdman Nazirliyinin və Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin dəstəyi ilə yollanıb.

Qitə çempionatında 30-dan çox ölkənin idmançıları mübarizə aparıblar.




# Dünya çempionatını güləşçilərimiz uğurla başa vurublar

*(Əvvəli 1-ci səhifədə)*

Hər üç güləşçimiz ilk qarşılaşmalarda uduzaraq medalsız qalıblar.

Dünya çempionatının son iki günündə yunan-Roma güləşçilərimiz mübarizəyə qoşulublar.

Baş məşqçi Aleksandr Tarakanov, böyük məşqçi Rövşən Bayramov və məşqçi Həsən Əliyevin rəhbərliyi altında turnirdə Eldəniz Əzizli (55 kq), Murad Məmmədov (60 kq), Taleh Məmmədov (63 kq), Həsrət Cəfərov (67 kq), Ülvü Qənizadə (72 kq), Sənan Süleymanov (77 kq), Rafiq Hüseynov (82 kq), İslam Abbasov (87 kq), Murad Lokyayev (97 kq) və Beka Kandelaki (130 kq) yarışıblar.



Güləşçilərimizdən Eldəniz Əzizli ilk görüşdə ukraynalı rəqibini, daha sonra Qırğızıstan güləşçisini məğlub edərək yarımfinala yüksəlib. Sonrakı mərhələdə Yaponiya güləşçisinə yenilən Əzizli bürünc medal görüşündə türkiyəli rəqibindən güclü olub və bürünc medala imza atıb.

Millimizin digər üzvü Sənan Süleymanov ilk mərhələdə Qırğızıstan, daha sonra Tacikistandan olan həmkarına da heç bir şans tanımayıb. Süleymanov alman rəqibini də məğlub edərək yarımfinala çıxıb. Bu mərhələdə Belarus təmsilçisi üzərində qələbə qazanan güləşçimiz finala yüksəlib. Həlledici görüşdə 2 qat olimpiya, 2 qat dünya və 4 qat Avropa çempionu Roman Vlasovla qarşılaşan Süleymanov rusiyalı rəqibinə minimal fərqlə uduzaraq dünya ikincisi olub.

Güləşçimiz Rafiq Hüseynov əvvəlcə Estoniya, Qırğızıstan, İsveç, daha sonra Rusiya pəhləvanı ilə gərgin keçən görüşdən qalib çıxaraq 2-ci dəfə dünya çempionatının finalına yüksəlib. Həlledici görüşdə Türkiyə güləşçisini məğlub edən həmyerlimiz dünya çempionu olub.

Digər medalı komandamıza yunan-Roma güləşçimiz Murad Məmmədov qazandırıb. Belə ki, o, Macarıstan, Yaponiya güləşçilərini məğlub etsə də, yarımfinalda qırğız güləşçiyə uduzub. Məmmədov üçüncü yer uğrunda Belarus güləşçisinə qalib gəlməklə, bürünc medal qazanıb.

Beləliklə, yığmamız 1 qızıl, 1 gümüş və 2 bürünc medalla 107 xal toplayıb və komanda hesabında dünya üçüncüsü olub.

# Cüdoçularımız İtaliyadan 2 medalla döndülər

*(Əvvəli 1-ci səhifədə)*

Yarımfinalda Kamoliddin Baxtıyarovdan güclü olan cüdoçu qızıl medal uğrunda görüşdə Giorgi Sardalaşvili (Gürcüstan) ilə üz-üzə gəlib. Həlledici görüşdə rəqibinə uduzan cüdoçumuz gümüş medal qazanıb.

Komandamızın aktivinə daha bir medalı 81 kq çəki dərəcəsində mübarizə aparan Elcan Hacıyev qazandırıb. Tatami ustası özbəkistanlı Nurbek Murtozoyev, daha sonra braziliyalı Markos Santosu və italiyalı Nosa Brıght Maddalonı məğlub edərək yarımfinala yüksəlsə də bu mərhələdə rusiyalı idmançı Adam Tseçoyevə məğlub olub. Bürünc medal uğrunda görüşdə rəqibi qazaxıstanlı Ayan Bayqaziyə ipponla qalib gələn E.Hacıyev dünya çempionatını üçüncü pillədə başa vurub.

Beləliklə, Azərbaycan ümumkomanda hesabında 12-ci sırada qərarlaşıb. Oğlanlar arasında isə yığmamız 7-ci yeri tutub.

# Mingəçevirdə "Kütləvi futbol həftəsi" layihəsi




UEFA-nın dəstəyi, AFFA-nın təşkilatçılığı ilə Mingəçevir şəhər stadionunda futbolun kütləviliyini artırmaq, uşaqların və yeniyetmələrin asudə vaxtlarının səmərəli təşkili, onlarda futbola maraq yaratmaq və sağlam həyat tərzini təbliğ etmək məqsədilə "Kütləvi futbol həftəsi" (Grassroots Week) layihəsi həyata keçirilib.

Layihədə 100-dən çox gənc oğlan və qız iştirak edib.

Tədbirin əvvəlində İkinci Qarabağ müharibəsi şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Meydançada - müxtəlif maraqlı oyunları əhatə edən sektorlarda uşaqlar öz bacarıqlarını nümayiş etdiriblər. Sonda hər bir iştirakçıya AFFA-nın kütləvi futbol departamentinin rəhbəri Fərrux İsmayılov tərəfindən layihəni əks etdirən futbol topları hədiyyə olunub.

# Gəncədə yeni Cüdo Mərkəzi istifadəyə verilib



Gəncədə yeni Cüdo Mərkəzinin rəsmi açılış mərasimi olub.

Açılış mərasimində çıxış edən Gəncə Şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Həmid Nəsirov, Azərbaycan Cüdo Federasiyasının rəsmiləri Tərlan Poladov, Mətin Rəhimli və Musa İsmayılov mərkəzin açılmasının önəmini vurğulayıb, bu münasibətlə gənc cüdoçuları təbrik ediblər.

Tədbirin sonunda Azərbaycan Cüdo Federasiyasının rəhbərliyi tərəfindən yeniyetmə cüdoçuların həvəsləndirilməsi üçün 100 ədəd yeni cüdoqi (kimono) hədiyyə verilib. Bununla yanaşı, federasiya tərəfindən Gəncədə fəaliyyət göstərən məşqçilər və hakimlər üçün iki günlük seminar təşkil edilib.

# Naftalanda cüdoçular və məşqçi-müəllimlər üçün seminar keçirilib

***Naftalanda cüdoçular və onların məşqçi-müəllimləri üçün seminar təşkil olunub.***

Seminar Azərbaycan Cüdo Federasiyasının regionlarla iş üzrə sektor müdiri Tərlan Poladov, hakimlər komitəsinin sədri Mətin Rəhimli və məşqçilər komitəsinin üzvü Musa İsmayılov tərəfindən keçirilib.

Federasiyanın mütəxəssisləri cüdoçuların təlim-məşq prosesi metodikasından danışaraq, məşqçilərin yeniyetmə cüdoçularla iş prosesində sadə hərəkətlərdən başlayıb mürəkkəb hərəkətlərə necə keçmək qaydasını izah ediblər.

Daha sonra cüdonun yeni texnika və qaydaları həm nəzəri, həm də praktiki olaraq iştirakçıların diqqətinə çatdırılıb.

# "Kəndlərdə idmanı inkişaf etdirək" layihəsi davam edir



***AFFA-nın yerli icra hakimiyyətləri ilə birgə təşkilatçılığı ilə "Kəndlərdə idmanı inkişaf etdirək" layihəsi üzrə növbəti tədbirlər Tovuz, Gədəbəy və Kürdəmirdə keçirilib.***

Tovuzun Bozalqanlı kəndində keçirilən tədbirdə AFFA-nın vitse-prezidenti, Azərbaycan Uşaq və Gənclər Futbol Federasiyasının prezidenti, Milli Məclisin deputatı Rauf Əliyev, Tovuz Rayon İcra Hakimiyyətinin başçısı Məmməd Məmmədov, deputatlar Arzu Nağıyev, Sabir Hacıyev və rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Gədəbəy rayonunun Novosaratovka kəndində keçirilən tədbirdə AFFA-nın vitse-prezidenti Rauf Əliyev, Gədəbəy Rayon İcra Hakimiyyətinin başçısının birinci müavini Natiq Nağıyev, deputatlar Arzu Nağıyev, Sabir Hacıyev və rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Kürdəmirdəki tədbirdə AFFA-nın vitse-prezidenti Rauf Əliyev, deputatlar Arzu Nağıyev, Əminə Ağazadə, Kürdəmir Rayon İcra Hakimiyyətinin, rayon Gənclər İdman İdarəsinin nümayəndələri və digər rəsmi şəxslər iştirak ediblər.

Hər bir tədbirdə 50 məktəbli uşağa futbola marağı artırmaq məqsədi ilə idman geyimləri və futbol topları verilib.



# Karate1 Premyer Liqasından 3 bürünc medal



Azərbaycan karateçiləri Moskvada Karate1 Premyer Liqasında 3 bürünc medal qazanıblar.

Təmsilçilərimiz Pənah Abdullayev (84 kq), Asiman Qurbanlı (+84 kq) və İrina Zaretska (68 kq) üçüncü yeri tutublar.

Moskvadakı nüfuzlu turnirdə 55 ölkədən 441 karateçi iştirak edib. Mövsümün son liqa turnirindən sonra kişi və qadın karateçilər noyabrda Dubayda dünya çempionatında iştirak edəcəklər.

# "Pekin-2022" Qış Olimpiya Oyunlarına xaricdən azarkeşlər buraxılmayacaq

***"Pekin-2022" Qış Olimpiya və Paralimpiya oyunlarının keçiriləcəyi məkanlara yalnız Çində yaşayan azarkeşlər buraxılacaqlar. Əcnəbi azarkeşlər COVID-19 pandemiyası ilə əlaqədar tətbiq olunan məhdudiyyətlərə görə Çinə gələ bilməyəcəklər.***

Bu barədə oyunların təşkilat komitəsinin "Pekin-2022" zamanı anti-epidemik məsələlərə dair Beynəlxalq Olimpiya Komitəsinə təqdim etdiyi tədbirlər toplusunda qeyd olunub. Qərarda həmçinin bildirilir ki, COVID-19 virusuna qarşı peyvənd edilən idmançılar istisna olunmaqla, digər atletlər və heyət üzvləri Çinə daxil olduqdan sonra 21 gün müddətində karantin rejimində qalmalıdırlar. Peyvənd olunan və karantin dövrünü keçənlər sonrakı müddətdə qapalı nəzarət sisteminə cəlb ediləcəklər. Yanvarın 23-də işə başlayacaq və Paralimpiya Oyunlarının sonunadək davam edəcək sistem atletlərin Çinə giriş-çıxışı, nəqliyyat, yerləşmə, qidalanma, yarışlarda iştirak, açılış və bağlanış mərasimlərini əhatə edəcək. Atletlərin və heyət üzvlərinin yalnız yarış məkanlarına, məşq zallarına və oyunlarla bağlı digər yerlərə girişinə icazə verilir. Onlar müəyyən olunmuş məkanlardan kənara çıxa bilməyəcəklər.

# Futbol. Dünya kuboku-2022. Seçmə mərhələ. Avropa zonası. "A" qrupu

**Azərbaycan - İrlandiya 0:3 (0:2)**

***9 oktyabr. Bakı. Olimpiya stadionu.***

**Hakimlər:** Espen Eskos - Kim Tomas Haqlund, Oysteyn Yutterland - Kay Erik Steen (Norveç).

**VAR hakimləri:** Əbdülqadir Bitigən - Əli Palabıyıq (Türkiyə).

**Qol:** Robinson 7, 39, Oqbene, 90.

**Sarı vərəqə:** İqan 88.

**Azərbaycan:** Şahrudin Məhəmmədəliyev, Maksim Medvedev (kap.), Höccət Haqverdi, Abbas Hüseynov, Anton Krivotsyuk (Renat Dadaşov, 79), Toral Bayramov (Araz Abdullayev, 63), Qara Qarayev, Emin Mahmudov (Rəhi Sadıqov, 86), Filip Ozobiç, Mahir Emreli, Namiq Ələsgərov (Ramil Şeydayev, 63). **Baş məşqçi:** Canni De Byazi.

**İrlandiya:** Qeyvin Bazunu, Şeyn Daffi, Mətt Doherti, Con İqan (kap.), Coş Kallen (Konor Huriheyn, 90+3), Deril Horqan (Ceymi Makqrat, 46), Ceyms Makklin, Kallum Robinson (Troy Parrott, 90+3), Ceff Hendrik, Əndryu Omobamidele, Adam İda (Çidozi Oqbene, 59). **Baş məşqçi:** Stefen Kenni.

| | O | Q | H | M | T | X |
|---|---|---|---|---|---|---|
| 1. Serbiya | 6 | 4 | 2 | 0 | 13-7 | 14 |
| 2. Portuqaliya | 5 | 4 | 1 | 0 | 11-4 | 13 |
| 3. İrlandiya | 6 | 1 | 2 | 3 | 8-8 | 8 |
| 4. Lüksemburq | 5 | 2 | 0 | 3 | 5-9 | 6 |
| 5. Azərbaycan | 6 | 0 | 1 | 5 | 3-12 | 1 |

***Qrupun digər oyunu:***

**Lüksemburq - Serbiya 0:1** (Vlahoviç, 68).

**Yoxlama oyunu: Portuqaliya - Qətər 3:0** (Kriştianu Ronaldu, 37, Fonte, 48, Andre Silva, 90).

***Növbəti oyunlar:***

**Serbiya - Azərbaycan**

***12 oktyabr. Belqrad. "Rayko Mitiç" stadionu.***

***Hakimlər:*** *Erik Lambrexts - Rin Vanizere, Co de Bayrdt - Natan Verboomen (Belçika).*

***VAR hakimləri:*** *Lourens Visser - Conatan Lardo (Belçika).*

***Qrupun digər oyunu:*** *Portuqaliya - Lüksemburq*

***Yoxlama oyunu:*** *Qətər - İrlandiya.*

***Təqvim***

***12 oktyabr:*** *Portuqaliya - Lüksemburq, Serbiya - Azərbaycan, Qətər - İrlandiya.*

***11 noyabr:*** *Azərbaycan - Lüksemburq, İrlandiya - Portuqaliya, Serbiya - Qətər.*

***14 noyabr (bazar):*** *Lüksemburq - İrlandiya, Portuqaliya - Serbiya, Azərbaycan - Qətər.*

# İDMAN

№ 21 (7116) 12 oktyabr 2021


## Azərbaycan batutçuları açıq Türkiyə çempionatında uğurla çıxış ediblər



*İzmirdə batut gimnastikası üzrə açıq Türkiyə çempionatı təşkil olunub. Yarışda Selcan Mahsudova, Maqsud Mahsudov, Hüseyn Abbasov, Mehdi Əliyev, İbrahim Mustafazadə və Ammar Baxşaliyev iştirak ediblər.*

Böyüklər arasında çıxış edən S.Mahsudova qüsursuz çıxış nümayiş etdirərək birinci olub.

13-14 yaşlı gimnastlar arasında çıxış edən M.Mahsudov da birinciliyi əldən verməyərək, fəxri kürsünün ilk pilləsində yer alıb. Onunla eyni yaş qrupunda çıxış edən M.Əliyev finalda yeddinci olub.

M.Mahsudov, M.Əliyev və H.Abbasov 13-14 yaşlı gimnastlar arasında komanda hesabında gümüş medal qazanıblar.

Daha bir medalı isə 10-12 yaşlı gimnastla yarışan A.Baxşaliyev qazanıb. Gimnastımız bu yarışda ikinci yerdə qərarlaşıb.

## Qadın qılıncoynadanlarımızdan bir gümüş və bir bürünc medal



Azərbaycan Qılıncoynatma Federasiyasının qadın sablyaçılardan ibarət milli komandasının üzvləri Bolqarıstanın Plovdiv şəhərində keçirilən "Satellite" turnirində bir gümüş və bir bürünc medal qazanıblar. Qrup mərhələsini uğurla adlayan Səbinə Kərimova, Sevil Bünyatova və Valeriya Bolşakova pley-off-a yüksəliblər.

İlk pley-off görüşündə Aylin Çakırı (Türkiyə) 15:10 hesabı ilə məğlub edən V.Bolşakova ardınca Belçika təmsilçisi Kortyen Saartje üzərində 15:9 hesablı qələbə qazanaraq yarımfinala yüksəlib. Bu mərhələdə Bolqarıstan sablyaçısı Olqa Hramovaya 15:5 hesabı ilə qalib gələn Bolşakova finalda digər bolqar idmançı Yoana İlievaya 12:15 hesabı ilə uduzaraq gümüş medal qazanıb.

Səkkizdəbir finalda Emma Neikova (Bolqarıstan) üzərində 15:9 hesablı qələbə qazanan Səbinə Kərimova ardınca İrina Şçuklanı (Türkiyə) 15:13 hesabı ilə məğlub edib. Yarımfinala yüksəlməklə turnirin bürünc medalını təmin edən S.Kərimova finalın bir addımlığında turnirin qalibi Yoana İlievaya 14:15 hesabı ilə uduzub.

Pley-off-da keçirdiyi ilk görüşdə türkiyəli sablyaçı Kaya Tugceni 15:10 hesabı ilə məğlub edən Sevil Bünyatova səkkizdəbir finalda İrina Şçuklaya 11:15 hesabı ilə uduzub.

## Türkiyə Qran-prisinin qalibi məlum olub



*Oktyabrın 10-da Formula 1 üzrə dünya çempionatında Türkiyə Qran-Prisi keçirilib. Mövsümün sayca 16-cı yarışı "İstanbul Park" trasında baş tutub.*

58 dövrəlik mübarizənin qalibi "Mercedes" komandasının pilotu Valtteri Bottas olub. İkinci yeri "Red Bull"un niderlandlı pilotu Maks Ferstappen tutub. "Red Bull" un digər pilotu meksikalı Serxio Peres isə ilk üçlüyü qapayıb.

Pilotların mübarizəsində Maks Ferstappen 262.5 xalla birinci, Luis Hamilton 256.5 xalla ikinci, Valtteri Bottas 177 xalla üçüncü yerdə qərarlaşıb.

Konstruktorların kubokuna "Mercedes" 433.5 xalla liderlik edir. "Red Bull Racing" 397.5 xalla ikinci, "McLaren" isə 240 xalla üçüncü yerdədir.

## İlqar Rəhimov Beynəlxalq Assosiasiyanın vitse-prezidenti seçilib



*Azərbaycan Milli Paralimpiya Komitəsinin (AMPK) prezidenti İlqar Rəhimov Beynəlxalq Görmə Məhdudiyyətli İdmançılar Assosiasiyasının (IBSA) vitse-prezidenti seçilib.*

Azərbaycan nümayəndə heyəti İlqar Rəhimovun rəhbərliyi ilə İordaniyada keçirilən IBSA-nın hesabat-seçki konfransında iştirak edib. Konfransda vitse-prezident vəzifəsinə namizəd kimi çıxış edən İ.Rəhimov seçki platforması barədə məlumat verərək, seçiləcəyi təqdirdə IBSA-nın dəyərlərinin müxtəlif ölkələr arasında təbliğinə, Assosiasiya üzvlərinin daha sıx və səmərəli əməkdaşlığının təşkilinə töhfə verməyə çalışacağını bildirib.

Çıxışlardan sonra IBSA-nın rəhbər heyətinin seçkiləri keçirilib. İ.Rəhimov səsvermə nəticəsində IBSA-nın vitse-prezidenti seçilib.

## Teymur Rəcəbov "Champions Chess Tour"da ikinci yeri tutub



Azərbaycan şahmatçısı Teymur Rəcəbov norveçli dünya çempionu Maqnus Karlsenin təşkil etdiyi "Champions Chess Tour"un final mərhələsində ikinci yeri tutub. Teymur yarışa üç məlubiyyətlə başlasa da, sonrakı 7 rəqibinin hamısını, o cümlədən norveçli dünya çempionu Maqnus Karlseni (3:1) məğlub edib. Şahmatçımız yarışı 27 xalla başa vurub. 10 qrossmeysterin iştirak etdiyi yarışın qalibi 31,5 xalla Maqnus Karlsen olub.

## Azərbaycanın voleybol məşqçiləri beynəlxalq konvensiyada iştirak ediblər



*Sloveniyanın Kranjska Gora şəhərində Avropa Voleybol Konfederasiyası (CEV) Regional Voleybol İnkişaf Mərkəzlərinin xətti ilə beynəlxalq miqyaslı məşqçilər konvensiyası keçirilib.*

Konvensiyada tanınmış voleybol mütəxəssisləri və məşqçiləri 75 ölkədən qatılan iştirakçılara həm nəzəri, həm də praktiki bilikləri daha da genişləndiriblər.

Müxtəlif ölkələrdən dəvət olunmuş 5 təcrübəli voleybol mütəxəssisi tərəfindən keçirilən konvensiyaya 175-ə yaxın məşqçi qatılıb. Ölkəmizdən isə 4 məşqçi - Nihad Tarverdiyev, Səbinə Yarməmmədova, Nina Neçay və Yelena Məmmədova iştirak ediblər.

Üç gün davam edən konvensiyada əsas orta məktəb müəllimləri iştirak ediblər. Onların əksəriyyəti aşağı yaş qruplarında məşq keçən mütəxəssislər olub.

## Azərbaycanlı bodibilderlər Sevilyada qızıl medal qazanıblar

*İspaniyanın Sevilya şəhərində keçirilən "Arnold Classic" turnirində azərbaycanlı bodibilder Rasim Həsənov qızıl medal qazanıb.*

Diasporla İş üzrə Dövlət Komitəsindən bildiriblər ki, tanınmış kinoaktyor və bodibilder Arnold Şvartsneqerin himayəsi altında keçirilən nüfuzlu yarışda dünyanın hər yerindən - Qvatemaladan Hindistana, Omandan Salvadora qədər ölkələri əhatə edən "dəmir adam"lar iştirak ediblər. "Muscular Men's physique" kateqoriyasının mütləq qalibi olan Rasim Həsənov bütün rəqiblərindən güclü olub.

"Arnold Classis" turnirində Rasim Həsənovla yanaşı, milli komandamızın digər üzvü Əliyulla Abbaszadə də qızıl medal qazanıb. Beləliklə, bodibilderlərimiz Sevilyadakı turnirdə Azərbaycan idman tarixinin yeni səhifəsini qızıl hərflərlə yazıblar.

Qeyd edək ki, 2021-ci il Rasim Həsənov üçün uğurla başlayıb. 32 yaşlı atletimiz may ayında İspaniyanın Santa Susanna şəhərində keçirilən bodibildinq üzrə Avropa çempionatının qalibi olub. Hazırda isə noyabr ayında həmin şəhərdə təşkil olunacaq bodibildinq üzrə dünya çempionatında iştirak etməyə hazırlaşır.

## Azərbaycan Voleybol Federasiyasının baş katibi Avropa voleybol qalasında iştirak edib

*Sloveniyanın paytaxtı Lyublyanada Avropa voleybol qalası təşkil olunub. Tədbirdə Avropa Voleybol Konfederasiyasının (CEV) İdarə heyətinin üzvü, Azərbaycan Voleybol Federasiyasının (AVF) baş katibi Cəlil Cəfərov iştirak edib.*




Qalada 2022-ci ildə qadın və kişi voleybolçular arasında keçiriləcək Çempionlar Liqasının püşkatma mərasimi keçirilib. Püşkatma mərasimində qruplar isveçrəli voleybol ulduzu Coana Haydrix və italiyalı Paola Eqonunun köməyi ilə müəyyən olunub.


Qəzetin təsisçisi
Azərbaycan Respublikasının
Gənclər və İdman Nazirliyidir

Baş redaktor: Qabil MEHDİYEV

Ünvan: AZ-1073, Bakı, Mətbuat prospekti, 529-cu məhəllə,
III mərtəbə. Telefon: faks: 510-53-10,
Web: www.azsport.az;
E-mail: idman@mys.az; Lisenziya: B235
Bank rekvizitlərimiz: h/h-AZ69AIIB33080019443300230103,
VÖEN: 1300432691, "Kapitalbank"ın Yasamal filialı, kod-200037,
VÖEN: 9900003611, Müxbir hesab: AZ37NABZ01350100000000001944

"İdman"ın kompüter mərkəzində yığılıb-səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
Tiraj: 1000 Sifariş: 1924
Qəzet hər həftənin çərşənbə axşamı günü çıxır.
Redaksiyaya daxil olan yazılar şərh edilmir və geri qaytarılmır.